

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 246 (23.157)

*22 dekabr 2018-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Heydər Əliyev adına Bakı neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin dekabrın 21-də açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı İlham Əliyevə görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, bitum qurğusu istismara verildikdən sonra burada illik istehsal 250 min tondan 400 min tona çatdırılacaq. Bu həcm ölkədaxili tələbatın təminatı üçün nəzərdə tutulur. Bu qurğuda "PEN 40-60" markalı yüksəkkeyfiyyətli bitum istehsal ediləcək. Növbəti mərhələlərdə AVRO-5 standartına cavab verən dizel və benzin yanacağının istehsalı nəzərdə tutulur və artıq bu istiqamətlərdə də işlər sürətlə davam etdirilir.

Maye qazdoldurma stansiyası 7 avtoçənə və 5 çən vaqona yükləmə qolundan ibarətdir. Bu məntəqədən il ərzində 180 min ton propan-propilen, 100 min ton mayeləşmiş qazın avtoçən və dəmir yolu, 178 min ton butan-butilen fraksiyasının isə boru xətti, lazım olduğu təqdirdə avtoçən və ya dəmir yolu ilə nəqli nəzərdə tutulub. Propan-propilen və butan-butilen fraksiyaları "Azərikimya" İstehsalat Birliyinin müəssisələrində xammal kimi işlənəcək, əmtəə məhsulu kimi isə məişətdə və nəqliyyat vasitələrində istifadəsi üçün satışa çıxarılacaq.

Prezident İlham Əliyevə Heydər Əliyev adına Bakı neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsi barədə məlumat verilib.

Prezident İlham Əliyev yeni bitum qurğusunu işə salıb.

* * *

Dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsib.

Sonra səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu nümayiş etdirilib.

## N.M. Tağıyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini – "Naxçıvan" əlahiddə sərhəd diviziyasının komandiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-mayor Niyaməddin Məhərrəm oğlu Tağıyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini – "Naxçıvan" əlahiddə sərhəd diviziyasının komandiri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## A.V. Quliyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini – "Naxçıvan" əlahiddə sərhəd diviziyasının komandiri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-mayor Asəf Vaqif oğlu Quliyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini – "Naxçıvan" əlahiddə sərhəd diviziyasının komandiri vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## Ş.F. Babayevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Şükür Fərəməz oğlu Babayev Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 21 dekabr 2018-ci il*

"Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Sərəncamına əsasən Allahverdiyev Əli Kərim oğlu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri, Qurbanov Yusifəli Süleyman oğlu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri, Mirzəyev İlqar Məhərrəm oğlu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri və Quliyev Vüqar Kərim oğlu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının sədri təyin edilmişlər.

* * *

"Bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Sərəncamı ilə Muradov Hicran Xasay oğlu Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin sədri, Əliyev Zamiq Xudaverdi oğlu Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin sədri, Məmmədov Mehrab Fərmayıl oğlu Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsinin sədri, Əhmədov Zülfüqar Əziz oğlu Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin sədri, Haqverdiyev Tural Ziyat oğlu Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsinin sədri, Zülfüqarov Hüseyn Nadir oğlu Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsinin sədri, Əliyev Mehdi Ədalət oğlu Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin sədri təyin edilmişlər.

* * *

"Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Sərəncamı ilə Hüseynov Səxavət Səməd oğlu və Salmanov Elşən Fizuli oğlu Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimləri, Hüseynov Elnur Heydər oğlu və Səfərəliyeva Gülnar Xanlar qızı Naxçıvan Şəhər Məhkəməsinin hakimləri, Əliyev Zamiq Xudaverdi oğlu və Səfərov Daşqın Yaqub oğlu Babək Rayon Məhkəməsinin hakimləri, Məmmədov Mehrab Fərmayıl oğlu Culfa Rayon Məhkəməsinin hakimi, Haqverdiyev Tural Ziyat oğlu Ordubad Rayon Məhkəməsinin hakimi, Əliyev Mehdi Ədalət oğlu və Qarayev Seymur Əlfəddin oğlu Şərur Rayon Məhkəməsinin hakimləri təyin edilmişlər. Həmin sərəncama əsasən Bəylərli Səxavət Şahhüseyn oğlu Babək Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi, Əhmədov Zülfüqar Əziz oğlu Sədərək Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Kəngərli Rayon Məhkəməsinin hakimi, Zülfüqarov Hüseyn Nadir oğlu Şərur Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Sədərək Rayon Məhkəməsinin hakimi təyin edilmişlər.

## 14 mindən artıq sərnişin dəmir yolundan istifadə edib

Muxtar respublikada dəmir yolunun inkişafı diqqətdə saxlanılır. Noyabr ayında muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 8 min 520 ton müxtəlif təyinatlı yük, Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 14 min 991 sərnişin daşınmışdır.

Ötən dövrdə lokomotivlər texniki baxışdan keçirilmiş, vaqonlarda cari təmir işləri aparılmış, baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün bütün kanallarda, körpü yataqlarında, küvetlərdə və beton borularda təmir işləri aparılmışdır.

Muxtar respublikada dəmir yolu infrastrukturunun texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər davam etdirilmiş, tikinti işləri aparılmış, Aza Təhlükəsizlik Komandasının inzibati binasında və yardımçı tikililərində aparılan əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Qış mövsümündə yarana biləcək problemlərin qarşısının alınması məqsədilə yerlərdə quraşdırılmış bütün qazanxana və qızdırıcıların istilik, elektrik, qaz və su sistemləri yoxlanılaraq peşə kurslarını bitirmiş ocaqçılarla komplektləşdirilmişdir. Xidməti ərazidəki bina, tikili və qurğular, eləcə də istismarda olan lokomotiv və sərnişin vaqonları mütəmadi yoxlanılmış, yanğına qarşı texniki müayinə aparılmış, nöqsanlar aradan qaldırılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

*Bağlar diyarı Ordubad rayonunda əvvəllər meyvəçilik və üzümçülükdə qazanılmış şöhrəti yenidən özünə qaytarmaq üçün həyata keçirilən tədbirlər öz bəhrələrini verməkdədir.*

## Meyvə və üzüm bağlarının sahələri genişləndirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası nəticəsində ötən dövr ərzində rayonda meyvəçilik və üzümçülük öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bunu 2018-ci ilin timsalında da görmək olar. Məlumat üçün bildirək ki, rayonda 720 hektar bağın 718 hektarını meyvə, 2 hektarını isə giləmeyvə sahələri təşkil edir. Cari ilin 1 dekabr tarixinə bağlardan 1,5 ton giləmeyvə, 5324,5 ton meyvə yığılıb.

Üzümçülükdə də qazanılan uğurlar qənaətbəxşdir. Belə ki, mövcud olan 5 hektar üzüm bağından cari ildə 296,3 ton üzüm tədarük edilib.

Bölgə sakinləri hər il yeni meyvə və üzüm bağları salınmasını davam etdirirlər. Bu tədbir 2018-ci ildə də diqqət mərkəzində saxlanılıb. Belə ki, yaz iməciliklərində Naxçıvan-Ordubad magistral avtomobil yolunun Düylün kəndi ərazisində 8 hektarda ərik, Naxçıvan-Ordubad magistral avtomobil yolunun Aşağı Əylis kəndi ərazisində 1 hektarda, "Gənclər bağı"nda 1,7 hektarda üzüm, payızda isə rayonun Dəstə kəndi ərazisində 5,3 hektar sahədə yeni meyvə bağı salınıb. Həmin yaşayış məntəqəsinin ərazisində 1 hektar sahədə ərik və badam dənələri əkilib.

Yaz və payız iməciliklərinin hər birində 4 hektar olmaqla, 8 hektarda bərpa işləri aparılıb.

**Abbas SEYİD**



# Quruculuq zəmanəmizin tələbi, həyat tərzimizdir

*Ötən əsrin sonları və yaşadığımız dövr istər müstəqil ölkəmiz, istərsə də inkişaf etməkdə olan digər ölkələrin iqtisadi və mədəni həyatında baş verən köklü transformasiyalar və yeni iqtisadi mühitin tələblərinə uyğun quruculuq tədbirləri ilə xarakterizə olunur. Belə ki, qloballaşma və beynəlxalq ticarətin sürətlənməsi ilə insanların həyat standartlarında da yeni keyfiyyət dəyişikliklərinin yaranması meyilləri cəmiyyətin bütün sahələrində müasirləşməni də tələb edir. Bu mənada, xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə dövlət quruculuğu sahəsində görülən nəhəng işlər məhz vətəndaşı olduğumuz müstəqil Azərbaycanın güclü ordusundan tutmuş ucqar kənd mərkəzinədək bütün coğrafiyamızda açıqca görünməkdədir. Xalqımızın zəngin tarixi keçmişindən süzülüb gələn və bu gün ulu öndərin layiqli davamçıları tərəfindən uğurla davam etdirilən belə möhtəşəm quruculuq fəlsəfəsi məhz günümüzün mənzərəsini formalaşdırmaqla bütün dünyaya modern Azərbaycan iqtisadi modelini təqdim edir.*





Quruculuq insan psixologiyasına xas olan təbii keyfiyyət, hər bir mədəni insanın arzuladığı tələbatlardandır. Bu tələbatlar həyativacib ehtiyaclardan tutmuş, çox mühüm institusional fəaliyyət növlərinin bərqərar edilməsinədək hər yerdə və həmişə öz zərurətini hiss etdirməkdədir. Quruculuq elə bir anlayışdır ki, onun vasitəsilə insan tarixi keçmişdəki nailiyyətlərini qoruyub saxlamaqla onu gələcək nəsillərə ötürə bilmək və gələcək ideallarını reallaşdırmaq yolunda çox mühüm cəsarət qazanır. Bununla da yeni addımlar atılıb, insanların həyatını kökündən dəyişdirən hər bir uğurlu quruculuq layihəsi başa çatdırıldıqca yeni arzular çiçəklənib boy atır. Odur ki, quruculuğu özünün həyat fəlsəfəsi kimi qəbul etmiş insanların həyat və fəaliyyəti də başqalarına nümunə olaraq həmişə yaddaşlarda yaşayır, özündən sonrakı dövr üçün istinad təşkil edir. Buna görə də sülh və sabitlik dövründə istər iqtisadi, istər sosial-humanitar sahədə görülən hər bir quruculuq tədbirinə on illər boyu xalqın rifahında dərin izlər buraxacaq bir əsər kimi də yanaşmaq mümkündür.

Azərbaycanın ən yeni tarixində, onun müstəqil dövlətçilik mübarizəsində mühüm yerə malik olan Naxçıvan Muxtar Respublikasında 1995-ci ildən başlayaraq uğurla davam etdirilən quruculuq öz mahiyyəti etibarilə bir vaxtlar ağır düşmən blokadasına düşmüş, enerji və kommunikasiya xətləri kəsilərək iqtisadiyyatı tamamilə iflic olmuş bir diyarda məhdud iqtisadi imkanlar hesabına başlanıldı. Bu gün isə daha geniş miqyasda davam etdirilərək muxtar respublikamızı investisiya cazibə mərkəzi halına gətirmiş əzmkarlığın nəticəsidir. Bu əzmkarlıq isə elə bir inam və iradənin məhsuludur ki, məhz onun hesabına indi, hətta Naxçıvanın ən ucqar kəndindəki sakinlər də müasir şəhər mədəniyyətinə xas həyat tərzinə qovuşmaqla ötən əsrin 90-cı illərinin ağrı-acısını artıq birdəfəlik unudublar.

Naxçıvanda başlayan quruculuq hərtərəfli olub, müasir insanın bütün əsas ehtiyaclarını ödəyən tələbatlara cavab verməklə əhalinin yaxşı yaşayışına hesablanmış dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. İnzibati idarəetmə, təhsil, səhiyyə, idman, turizm və rekreasiya, mədəniyyət, energetika, su təminatı, rabitə, nəqliyyat, məişət xidməti və digər sahələrdə hər gün rastlaşdığımız tələbatların ödənilməsi üçün keçmiş sovetlərdən qalmış yarıtmaz infrastrukturun yenilənməsi, korlanmış ekoloji vəziyyətin bərpa edilməsi üçün görülən işlər genişmiqyaslı bir quruculuq xəritəsinin əsas konturlarını təşkil edir. Beləcə, illər keçdikcə, bu xəritədəki xətlər sıxlaşıb bir-birinə qovuşduqca hər yeni quruculuq ünvanı yüz kilometrlərlə uzun yollar, geniş körpülər, bir-birindən yaraşıqlı binalar kimi Sədərəkdən Ordubada, Babəkdən Şahbuza qədər bütün ərazidə Naxçıvana gələn turistləri heyrətləndirən əsərlərə çevrilib.

Bir çoxları quruculuq deyərkən yalnız, sözün dar mənasında, haradasa həyata keçirilən təmir-tikinti, yaxud yenidənqurma işləri başa düşürlər. Doğrudur, bunlar da daxil olmaqla, quruculuq cəmiyyət həyatının hər sahəsini əhatə edən genişmiqyaslı yaradıcılıq sahəsidir. Başqa sözlə, bu gün ucqar bir kənddə aparılan quruculuq təkcə həmin gün istifadə olunan rahat yol, yaxud müasir xidmət mərkəzi demək deyildir. Məsələn, bugünkü quruculuqla ərsəyə gətirilən məktəb sabahımızın savadlı müəllim, həkim və mühəndislərinin yetişdirildiyi ocaqdır. Odur ki, indiki altıyaşlı birincilər 2050-ci illərdə hərtərəfli yetişmiş kadrlar kimi Azərbaycanın inkişafına xidmət edərkən bir zamanlar təhsil aldıqları həmin gözəl binalarda onlara dərs demiş nurlu müəllimləri xatırlayaraq bir daha xəyalən bu günlərə qayıdacaqlar. Qayıdacaqlar ki, bir vaxtlar yay-qış, uzaq-yaxın demədən Naxçıvanın o səfalı kəndlərini müasirliyə qovuşduran fədakar insanlara, onların rəhbərinə öz minnətdarlıq hisslərini bir daha bildirsinlər. Ona görə də quruculuq, təkcə bir iqtisadi fəaliyyət növü deyil, eyni zamanda insanların sosial bağlarını möhkəmlədən, onlarda yurd sevgisi hisslərini dərinləşdirən bir cazibə qüvvəsidir həm də.

Quruculuq bir düşüncə tərzidir. Zamanın axarında haradasa, nə zamansa tikilən bir bina fiziki və mənəvi aşınmaya məruz qalsa da, insanın quruculuq həvəsi heç zaman köhnəlmir. O, elə bir təbii istəkdir ki, məhz onun vasitəsilə gənclərin yaradıcılıq potensialı üzə çıxarılır, cəmiyyətin min illər ərzində topladığı təcrübə gənc nəslə ötürülür. Bu baxımdan quruculuq insan resurslarının artırılması, onların gücündən səmərəli istifadə olunmasının ən yaxşı yoludur, – desək, yanılmarıq. Çünki düşüncəsində quruculuq hissləri hakim olan hər bir şəxs tutduğu vəzifədən və sosial statusundan asılı olmayaraq, sözün əsl mənasında, daşı daş üstə qoymaqla nəyisə sabaha miras qoymaq istəyir. Hələ böyük memar Əcəmi Naxçıvani dövründən formalaşıb bu günümüzədək davam edən "Tikdim ki, izim qala" düşüncə tərzi də məhz, bu mənada, keçmişlə bu günü bir-birinə bağlayan etibarlı mənəvi körpülərin inşasını özündə yaşadan bir mədəniyyəti ifadə edir. Bu fikir insanlığa, onun işıqlı gələcəyinə xidmət edən ali mədəni norma kimi yüz illər ərzində naxçıvanlıların qanına diffuziya etməklə, əslində, onların yaddaşında möhkəmlənmiş bir həyat tərzinə çevrilib.

Quruculuq həm də sabaha inam, uzunmüddətli investisiya növüdür. Belə bir fikir də vardır: o yerdə insan yaşayır ki, orada abadlıq vardır. Və orada abadlıq vardır ki, oranın əzəli və əbədi sakinləri vardır. Bu mənada, Naxçıvanda həyata keçirilən quruculuq ötən əsrin 90-cı illərinin əvvəllərində cəmiyyətimizdə cərəyan etmiş kataklizmlərin vurduğu yaraların üzərinə məlhəm çəkən, insanları yenidən özünə gün-güzəran qurmağa həvəsləndirən bir inam qaynağıdır.

Bu gün ucqar dağ və sərhəd kəndlərində dövlətin qurub-yaratdıqlarından vəcdə gələn yerli sakinlər də, sanki bir-biri ilə yarışırlarmış kimi villatipli evlərin, bağ-bağçanın inşasına girişiblər. Onlarda bu inamı yaradan isə, şübhəsiz, dövlətin milyonlarla vəsaiti hesabına başa gələn yol və körpülər, kənd və xidmət mərkəzləri, inzibati binalar və sosial xidmət obyektləridir. Bir zamanlar qışda yollarında nəqliyyatın praktik olaraq işləmədiyi, yayda isə yalnız xüsusitipli avtomobillərin keçib gedə bildiyi Ağbulaq indi, turizm cənnəti Naxçıvanın abadlaşan kəndlərinin bir modelidir. Belə ucqar yerlərdə torpağın hər qarışını qiymətli edən müasir quruculuq bölgəyə yeni həyat standartı, yeni keyfiyyət ölçüsü qazandırıb.



Və quruculuq savabdır. Tarixən azərbaycanlılarda məskunlaşdıqları hər bir yaşayış məntəqəsini güllü-gülüstana çevirmək, yol çəkmək, körpü salmaq mədəniyyəti formalaşıb. Milli dəyərlərimizin bir hissəsi kimi həmişə yaşadılan bu mədəni nailiyyətlərimiz bu gün də Naxçıvanda həyata keçirilən quruculuğun əsas motivlərindən biridir.

*Bu gün dövlətimizin həyata keçirdiyi sosial siyasət tədbirləri çərçivəsində Naxçıvanda yaşayan iqtisadi fəal əhali qədər məhdud fiziki imkanlı və az gəlirli təbəqənin üzvləri də eyni dərəcədə maddi və mənəvi rifahdan faydalanırlar. Bu mənada, "quruculuq hamı üçün" düşüncəsi ilə həyata keçirilən bütün bu işlər haradasa köməyə ehtiyacı olan bir ahılın bütün zəruri tələbatlarının ödənilməsi üçün əsas dövlət zəmanətidir. Bu qayğı əhatəsində yaşayan hər belə vətəndaşımızın da nə işığı, nə qazı, nə suyu kəsilmirsə, isti evində oturub, bu günləri gördüyü üçün Yaradana şükürlər edirsə, bu da hamıya çatan bir savabdır. Qoy, Uca Allah hamıya kömək olsun!*

**Əli CABBAROV**

# Etibarlı ərzaq təminatına əsaslı zəmin yaradılıb

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında əsas rolu dayanıqlı toxum ehtiyatı oynayır. Çünki son onilliklərdə dünya toxum bazarı o qədər böyük genetik modifikasiyaya məruz qalıb ki, ölkələr üçün sağlam toxum ehtiyatı yaratmaq, sözün həqiqi mənasında, müşkül məsələyə çevrilib. Təbii ki, bu məsələdə müxtəlif siyasi məqsədlər də az rol oynamır. Ənənəviliyi bərpa etmək isə bəzən onilliklərə başa gəlir. Yəni toxumçuluğun bu tərəflərini qeyd etməkdə məqsədimiz ondan ibarətdir ki, bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi hər ölkə üçün böyük əhəmiyyətə malikdir. Bu baxımdan "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli Qanununun tətbiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ötən il imzalanmış Fərman mühüm strateji əhəmiyyəti ilə seçilir. Qanunun qəbul olunması kənd təsərrüfatı məhsullarının istehsal həcminin yüksəldilməsi, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanı ortaya qoyur. Adıçəkilən qanunda toxumçuluğun məqsədi yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, xəstəliyə, ziyanvericilərə və müxtəlif iqlim şəraitinə dözümlü bitki sortları yetişdirmək və onların çoxaldılmasını təmin etməkdir. Toxumçuluğun vəzifəsi isə dövlət reyestrinə daxil edilmiş bitki sortlarının sorttəmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sortdəyişmə və sorttəzələməni həyata keçirməklə toxumların kütləvi artırılmasından ibarətdir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlar sahibkarları yüksək reproduksiyalı toxum sortları ilə təmin edilirlər. Burada da məqsəd lazımi iqlim qurşaqlarına, münbit torpaqlara malik muxtar respublikada aqrar sahənin ənənəvi əsaslar üzərində davamlı inkişafını təmin etməkdir.

Onu da deyək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından müstəsna rolu olub. Həmin proqramda əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması, bitkiçiliyin, xüsusən taxılçılığın, meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, heyvandarlığın, o cümlədən ət və süd məhsulları istehsalının inkişaf etdirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi regionda ərzaq məhsullarının istehsalında artıma və əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaradıb. Hazırda icrası başa çatmaqda olan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da digər sahələrlə yanaşı, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı baxımından böyük əhəmiyyət kəsb edir. Ümumilikdə, kənd təsərrüfatının inkişafı sahəsində əldə olunmuş nəticələri statistik rəqəmlərlə daha yaxşı təsəvvür etmək olar. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında 411 milyon 443 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 23241 tonu, süd istehsalı isə 80608 tonu ötüb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4,5 faiz, süd istehsalı isə 1,4 faiz artıb. Bunu da əlavə edək ki, kənd təsərrüfatı məhsulları istehsalında ötən bir il ərzində 4,2 faizdən çox artıma nail olmaq böyük nəticədir, eyni zamanda bu artım faizi digər sahələr üzrə əldə edilən faizdən daha yüksəkdir. Bütün bunlar isə əhalinin keyfiyyətli, yerli ərzaq məhsulları ilə təminatında mühüm rol oynayır.

**Səbuhi HƏSƏNOV**

*Səhiyyə*

# Əhalinin sağlamlığına qayğı dövlət siyasətinin tərkib hissəsidir



***Naxçıvan səhiyyəsinin dünəni barədə söhbət düşəndə yaşlı insanlar illər öncənin bu sahədəki çatışmazlıqlarını yada salır, bugünkü vəziyyətlə müqayisə edirlər. Yararsız xəstəxana binaları, köhnə avadanlıqlar, kadr çatışmazlığı o dövr səhiyyəsinin əsas xarakterik xüsusiyyətlərindən idi. Şəhərə nisbətən kəndlərdə vəziyyət daha acınacaqlı olurdu. Nə həkim tapılırdı, nə də ki dərman. Pis günün ömrü az olar, – deyiblər. İllər keçdi Vətən, millət qədri bilənlər qurub-yaratdılar, xalqın sabaha inamı özünə qaytarıldı. Qısa müddət ərzində bütün sahələrdə dirçəliş özünü göstərdi. Səhiyyə sahəsinə də xüsusi diqqət yetirildi. Çox keçmədi ki, ən ucqar kəndlərdə belə, müasir səhiyyə infrastrukturu yaradıldı, tibbi xidmətin səviyyəsi yüksəldi. Bu sahədə yüksəkixtisaslı kadrların hazırlanması işi də diqqətdən kənarda qalmadı. Bir sözlə, insanların muxtar respublika səhiyyəsinə, həkimlərə olan inamı artdı.***





Bu gün paytaxt Naxçıvan şəhərində sakinlərin sağlamlığı keşiyində duran müasir səhiyyə ocaqları fəaliyyət göstərir, tibb müəssisələri ən yeni avadanlıqlarla təmin olunub, bacarıqlı kadrlar işə cəlb edilib. Naxçıvan şəhərinin Qaraçuq kəndindəki həkim ambulatoriyası da məhz belə şəfa ocaqlarındandır. Ötən günlərdə həmin ünvanda səhiyyə sahəsində yüksəlişin bir daha şahidi olduq.

Tibb müəssisəsində bizi ambulatoriyanın baş həkimi, pediatr Akifə Quliyeva qarşıladı. Öyrəndik ki, o, peşə fəaliyyətinə elə dünyaya göz açdığı bu kənddə başlayıb. Artıq 25 ilə yaxındır ki, sakinlərə tibbi xidmət göstərir. Deyir, insan üçün dünyada ən əziz nemət can sağlığıdır. Çalışdığı illər ərzində bir çoxlarına şəfa bəxş etdiyi üçün özünü xoşbəxt sayır. Çəkdiyi zəhmət dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, o, 2016-cı ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adına layiq görülüb. Akifə Quliyeva qeyd etdi ki, bundan sonra da əzmlə çalışacaq, sakinlərin sağlam yaşayışı üçün əlindən gələni əsirgəməyəcək.

Müsahibimiz çalışdığı səhiyyə ocağı barədə məlumat verərək bildirdi ki, Qaraçuqda ilk həkim ambulatoriyası 1983-cü ildə yaradılıb. Əvvəllər burada tibbi şərait ürəkaçan olmayıb. Lakin son illər bütün sahələrdə gedən tikinti-quruculuq tədbirlərindən bu tibb ocağına da pay düşüb. Belə ki, 2015-ci il yanvarın 14-də həkim ambulatoriyası müasir görkəmi ilə öz qapılarını sakinlərin üzünə açıb. İkimərtəbəli binada baş həkim, mama-ginekoloq, terapevt, peyvənd, mama, tibb bacısı, qeydiyyat, müayinə, manipulyasiya otaqları, fizioterapiya və stomatoloji kabinələr, palata, əczaxana vardır. Səhiyyə ocağı müayinə və müalicələrin təşkili üçün müasir avadanlıqlar, dərman preparatları, peyvəndləri saxlamaq üçün xüsusi soyuducu, təcili yardım və peyvənd çantaları ilə təmin edilib. Tibb müəssisəsi Qaraçuq kəndi ilə yanaşı, Qaraxanbəyli və Bulqan kənd sakinlərinə, ümumilikdə, 7955 nəfərə tibbi xidmət göstərir. Sakinlərə xidmətin operativ təşkili üçün Qaraxanbəyli və Bulqan kəndlərində ambulatoriyanın feldşer-mama məntəqələri yaradılıb və fəaliyyətləri günün tələbləri səviyyəsində təşkil olunub.

Ambulatoriyanın stomatoloq otağında dişlərin müayinə və müalicəsi, protezlərin hazırlanması işləri yüksək səviyyədə həyata keçirilir. Manipulyasiya otağında xəstələrə sistem məhlulları köçürülür, inyeksiyalar aparılır. Mama-ginekoloji otaqda hamilə qadınların qeydiyyatı və müayinəsi təşkil edilir, peyvənd otağında isə 6 yaşadək uşaqlara profilaktik qoruyucu peyvəndlər vurulur, xəstələrə digər lazımi tibbi yardım göstərilir.

Cari ildən ambulatoriyada fizioterapiya kabinəsi də fəaliyyətə başlayıb. Qısa zaman ərzində onlarla kənd sakini kabinənin xidmətlərindən yararlanıb. Burada fizioterapevtik aparatlar quraşdırılıb. Aparılan müayinə və müalicədə ultrasəs dalğalarından istifadə edilir.

Həkim ambulatoriyasında mütəmadi olaraq yenidoğulmuşların qeydiyyatı aparılır, sahə tibb bacıları tərəfindən azyaşlı uşaqların evlərdə tibbi müayinəsi keçirilir, xəstəlik aşkar olunduqda dərhal həmin uşaqlar ambulatoriyaya cəlb edilirlər. Səhiyyə ocağında vərəm, dərizöhrəvi, endokrinoloji, ürək, göz və digər xəstəliklərdən əziyyət çəkən sakinlər dispanser qeydiyyatına götürülür, onların müayinə və müalicələri aparılır.

Tibb ocağında olarkən burada müayinə və müalicə alan xəstələrlə də görüşüb həmsöhbət olduq. Qaraçuq kənd sakini, 63 yaşlı Ceyran Bayramova revmatit-poliartrit xəstəliyindən əziyyət çəkir. O, ambulatoriyada aparılan müalicədən razılıqla danışdı:

– Heç kim başına gələcəklərdən sığorta olunmayıb, xəstəliyə də nə vaxt tutulacağını bilmirsən. Xəstələnən zaman isə köməyimizə ilk olaraq qayğıkeş həkimlər yetişir. Qeyd edim ki, kəndimizin bugünkü simasını görəndə, həkim ambulatoriyasında yaradılan gözəl şəraitlə, bəslənilən mehriban münasibətlə qarşılaşanda qeyri-iradi yadıma əvvəlki şəraitsizlik üzündən dünyadan köçən insanlar düşür. Şükürlər olsun ki, artıq həmin xoşagəlməz hallarla rastlaşmırıq. İndi yüksək şəraitə malik xəstəxanalarımız, bacarıqlı həkimlərimiz var. Kəndimizdəki tibbi xidmət hər bir sakinin ürəyincədir. Burada aldığım müalicə sayəsində özümü gümrah hiss edirəm. Yaradılan şəraitə, göstərilən xidmətə görə minnətdarlığımı bildirirəm.

Bulqan kənd sakini, yaşı 65-i adlamış Mahirə Məmmədova da uzun müddətdir, xəstəliklərdən əziyyət çəkir. Həkim ambulatoriyasında aparılan müayinə zamanı onda şəkərli diabet və zob xəstəlikləri aşkarlanıb, lazımi müalicə kursu yazılıb. Bu barədə onun dediklərindən:

– Şəkərli diabet bu gün ən çox yayılan xəstəliklərdəndir. Bəzi insanlar sağlamlıqlarında problem olduğunu bilsələr də, buna laqeyd yanaşır, həkimə gec müraciət edirlər. Başıma gəldiyi üçün deyə bilərəm ki, xəstəlik gec müəyyən ediləndə müalicəsi də çətin olur. Hər kəsə məsləhətim budur ki, səhhətində narahatlıq hiss edən kimi dərhal həkimə müraciət etsin. Bu gün səhiyyə ocaqlarımızda gözəl tibbi şərait yaradılıb. Yetər ki, insan öz sağlamlığına laqeyd yanaşmasın, vaxtında tibb ocaqlarına üz tutsun. O zaman xəstəlikdən tez yaxa qurtarıb, sağlam həyat yaşaya bilər. Onu da qeyd edim ki, kəndimizin ambulatoriyasında tibbi xidmət ürəkaçandır. Burada hər iki xəstəliyimə lazımi müalicə yazılıb, mütəmadi olaraq müayinə üçün gəlirəm. Gördüyüm qayğıkeş, doğma münasibət məni həyata bağlayır. Qohum-əqrəba arasında da söhbət düşəndə deyirəm, nə yaxşı ki belə gözəl şəraitimiz, təcrübəli tibb işçilərimiz var.

Digər müsahibim Qaraxanbəyli kənd sakini Sabir Məmmədov bronxial-astma xəstəliyindən əziyyət çəkir. Ambulatoriyada dispanser qeydiyyatına alınıb, mütəmadi olaraq müalicə kursu keçir. Deyir, gənc yaşlarda insan xəstəliyə ötəri yanaşır. Vaxtında müalicə olunmur, sonradan da ciddi fəsadlar ortaya çıxır. Zaman keçdikcə vəziyyət ağırlaşır və günlərin birində aydın olur ki, artıq müalicə üçün gecdir. Ambulatoriyada özümü doğma evimdəki kimi hiss edirəm. Göstərilən tibbi xidmətdən çox razıyam. Müalicəm üçün nə lazımdırsa, edilir. Yaradılan şərait üçün minnətdaram.

*Ünsiyyətdə olduğumuz insanların söhbətlərindən yəqin etdim ki, həkim ambulatoriyasında adıçəkilən kəndlərin sakinləri keyfiyyətli tibbi xidmətlə təmin edilirlər. Bu sahədə görülən işlər dövlətimizin insan amilinə verdiyi önəmin, insanların sağlam yaşamasına göstərdiyi qayğının təzahürüdür. Hər bir vətəndaşın eyni səviyyədə tibbi xidmətlə təmin edilməsi sosialyönümlü siyasətin ilbəil yeni bəhrələr verdiyini bir daha təsdiq edir.*

✍ **Nail ƏSGƏROV**

***Müasir gənclik xalqına, cəmiyyətə yararlı olmaq üçün təkmilləşməli, yüksək dünyagörüşünə malik olmalıdır. İdeyaları formalaşdıran, düşüncə tərzini genişləndirən ilk vasitə isə, heç şübhəsiz ki, kitablardır. Məhz buna görə də son dövrlərdə muxtar respublikamızda görülən çoxsaylı tədbirlər nəticəsində kitabxanaların, kitab mağazalarının sayı günü-gündən artır. Artıq müxtəlif dillərdə olan kitabları Azərbaycan dilində tapmaq çətin deyil. Bu isə, öz növbəsində, oxucularda kitablara marağın artmasına səbəb olub. Kitabların rəngarəngliyi, çoxcəhətliliyi mütaliəyə olan marağın kütləvi şəkil almasına yol açıb. Bu, bir inkişafdır, böyük göstəricidir.***

# Mütaliəyə maraq inkişafa meyillilikdir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq edilməsi, bu kitabların mütalia və müzakirəsi, təbliği istiqamətində görülən tədbirlər isə biz gənclərdə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına xidmət edir.

Bədii ədəbiyyat zövq məsələsidir, hər oxucu öz daxili aləminə görə kitablar seçir. Lakin heç də hər oxucu kitabları məzmun və ideya əhəmiyyətinə görə düzgün dəyərləndirə bilmir. Kitabları ruhumuzun ehtiyacına, mənəvi tələbatımıza görə seçməliyik.

İnkişafa gedən yol özümüzü tanımaqdan keçir. Özümüzü tanımaq üçün isə tarixi keçmişimizi, milli ədəbi irsimizi öyrənməli və yaşatmalıyıq. Bunun üçün bizim ilk köməkçilərimiz məhz kitablar ola bilər. Xalqımızın Nizami, Füzuli, Cavid, Müşfiq kimi dahiləri var. Onların yaratdıqları irs qoyub getdikləri kitablar bizim üçün qiymətli sərvətlərdir. Məhz bu sərvətlərlə öz daxili aləmimizi zənginləşdirə, müstəqil həyatda özümüzə yol tapa bilərik. O irsi yaşatmaq da bizim üzərimizə düşür. Yaşatmalıyıq ki, onlardan gələcək nəsil də istifadə edə bilsin.

Etiraf edək ki, müasir gənclərdə Avropaya meyil, postmodernist ənənələrə maraq daha çoxdur. Bu, yaxşı haldır ki, milli ədəbiyyatımızla yanaşı, dünya ədəbiyyatı da oxunur və müqayisələr aparılır. Əslində, gənclik bu yolla bizim nə qədər diqqətəlayiq əsərlərimiz olduğunu daha dərindən dərk edir. Eyni zamanda öz keçmişimizi, əcdadlarımızı unutmamaq üçün mütaliə seçimində milli ədəbiyyatımıza daha geniş yer verməli, onu dəyərləndirməliyik.

Mütaliə etmək yalnız bədii əsər oxumaq demək deyil. Məqsədyönlü inkişaf etməyimiz üçün müəyyən biliklərə sahib olmağımız əsas şərtdir. İntellektimizi inkişaf etdirmək, öz ixtisasımızı yaxşı öyrənmək məqsədilə elmi kitablara, xəyal dünyamızı genişləndirmək üçün fantastik və detektiv, dünyanı, kainatı dərk etmək üçün fəlsəfi əsərlərə, keçmişimizi öyrənməkdən ötrü tarixi kitablara üz tutmalıyıq.

Kitablar hər birimizin uzun bir səyahətə çıxdığımız ölkəyə bənzəyir. Onlar söykənəcək yerimiz, sığınacaq limanımızdır. Sıxıntılardan qaçıb təsəlli tapdığımız bir məkandır. Bir kitab bir insan həyatı, bir insan taleyi deməkdir. Yeni insanlarla tanış olmaq, təcrübə qazanmaq deməkdir. Kitab oxuyarkən biz həyatda heç qarşılaşa bilməyəcəyimiz yazıçılarla söhbət edir və onların həyata baxışlarını, yaşadıqları həyatı yaşayırıq. Bəzən Raskolnikovla birlikdə balta qaldırır, bəzən Samsa ilə böcək oluruq. Bəzən Nizami ilə qələm, bəzənsə Fəxrəddinlə qılınc oluruq, onlarla bərabər yaşayıb, onlarla birgə ölürük. Kitablar bizim əsl həmdəmimizə çevrilir, onlarla göz yaşları tökür, axtardıqlarımızı kitab səhifələrində tapa bilirik. Bəlkə də, həyatımızda qazana bilməyəcəyimiz təcrübələri öncədən qazandıran və yanlış addımlardan uzaqlaşdırmağa kömək olan ən dəyərli varlıqlardır kitablar. Məhz ona görə onlara güvənməli, onlara nəvaziş göstərməli, onları qorumalıyıq. Ömrümüz boyu onlara minnətdar olmalıyıq.

Kitab oxuyan insan, hətta gənc olmasına baxmayaraq, dünyanı dərk edər, yaşadığı cəmiyyətə dəyər verər, xalqına faydalı olar. Ölkəni dağıtmağa yox, onu qurmağa, ondan nə isə qoparmağa yox, ona nə isə verməyə çalışar.

Cəmiyyət olaraq qloballaşan dünyada mürəkkəb proseslərdən keçirik. Bu proseslərdən məharətlə baş çıxarıb öz milli mənəviyyatımızı qorumaq naminə mütaliə etməliyik. Çünki ən təsirli tərbiyə üsullarından biri mütaliə etməkdir. Unutmayaq ki, bir evin inşası ilk kərpicdən başlayır. Bizlər də bu cəmiyyəti inşa edəcək o ilk və sağlam kərpiclər olmalıyıq. Biz gənclər də dövlətimiz, xalqımız, cəmiyyətimiz üçün faydalı işlər görməli, ölkəmiz üçün əlimizdən gələni əsirgəməməliyik. Bunun üçün isə oxumaq, öyrənmək mütləqdir.

**Könül SEYİDOVA**
***Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin III kurs tələbəsi***

# Şagirdlərin əl işlərindən ibarət sərgi təşkil edilib



*Dünən Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində rəsm ixtisası üzrə müəllim Nizami Məmmədov və şagirdlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.*

Əvvəlcə məktəbin direktoru Elşən Xəlilov çıxış edərək bildirib ki, sərginin təşkilində əsas məqsəd tədrisin səviyyəsinin yüksəldilməsi, bu sahə üzrə istedadlı uşaqların üzə çıxarılması, onların yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsidir.

Sərgidə məktəbin rəsm müəllimi Nizami Məmmədovun 30, şagirdlərinin isə 30 əl işi nümayiş etdirilir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Gülbuta Babayeva və Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli muxtar respublikamızda uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə göstərilən dövlət qayğısından danışıblar.

Sonra sərgiyə baxış olub. Naxçıvanın təbiəti, tarixi abidələri, bu günü haqqında çəkilən rəsmlər maraqla qarşılanıb.

**Əli RZAYEV**




Əbülfəz Muxtaroğlu
Foto: Əli XUDİYEV

# Yallı mədəniyyətimizin əbədilik simvoludur

***Yallı ölkəmizi dünyaya tanıdan, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini, etnoqrafiyasını, mifoloji inanclarını aydın şəkildə çatdıran milli rəqsimizdir. Bu gün doğma Vətənimizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanda yallı sənəti inkişaf edir, qorunub saxlanılır və gələcək nəsillərə ötürülür.***

Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirib, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub.

Bildiyimiz kimi, 2018-ci il 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Gələcəkdə qədim diyarımızda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq baxımından bu qərar mühüm əhəmiyyət kəsb edir. Biz də sənət xadimlərimizlə həmsöhbət olub mədəniyyətimizin əbədilik simvolu sayılan yallılarımız haqqında onların fikirlərini öyrəndik.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, dosent Gülxarə Əhmədova qeyd etdi ki, bəzi imperialist maraqlara xidmət edən vicdanlar susanda, üzərində bu torpaqların bizə məxsus olduğunu sübut edən maddi-mədəniyyət nümunələri dinib-danışmağa başlayır. Etiraz edilib-edilməməsindən asılı olmayaraq, faktlar sübut edir ki, indiki Ermənistan ərazisi tarixən Azərbaycana məxsus olmuş türk torpaqlarıdır.

Ermənilərin istifadə etdiyi mahnı və rəqslərin, yallıların İrəvan və Naxçıvan oğuzlarına məxsusluğunu təsdiq edən, XIX əsr rus qafqazşünaslarına aid maraqlı faktları diqqətimizə çatdıran müsahibim vurğuladı ki, 1828-1832-ci illərdə Rusiya hökumətini İrəvan və Naxçıvan xanlıqlarında əhalinin kameral siyahıya alınmasına rəhbərlik etmiş İvan Şopenin bölgənin tarixinə aid yaddaş və təqvim xarakterli əsərində qeyd edir: "Ermənilər heç zaman milli nəğmələrə malik olmayıb. Ermənilər musiqini və nəğmələri azərbaycanlılardan götürüb. Onlar hazırkı rəqsləri və oyunları azərbaycanlılardan iqtibas ediblər". Bu yaxınlarda Naxçıvana məxsus rəqslərin UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi ilə Şərur, ələlxüsus "Köçəri" yallısını öz adına çıxmağa çalışan Ermənistanın "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin növbəti dəfə qarşısı alınıb.



Ulu babalarımızın öz həyat tərzi, əməyi, mübarizəsi, sevgisi, nifrəti haqqında yaratdıqları sənətkarlıq nümunələri, qoşduqları mahnılar və nəğmələrimiz bu gün də yaşayır və yaşayacaq.

Müsahibim bildirir ki, hələ on min il bundan əvvəl Qobustan qayalarında və Gəmiqayada həm fərdi, həm də kütləvi rəqslərin ayrı-ayrı məqamları həkk edilib. Xalqımız yüz illər boyu özünün folklorunu, musiqisini, rəqslərini, ifa tərzini, hərəkət leksikasını yaradıb. Musiqi folklorumuzun ən geniş yayılmış janrı olan yallılar qədim azərbaycanlıların müxtəlif münasibətlərlə təşkil etdiyi mərasimlərdən yaranıb və inkişaf edib. Yallı xalqımızın qəhrəmanlıq salnaməsi kimi, birlik, həmrəylik, bərabərlik simvoluna çevrilib. Yallı sədaları altında igidlərimiz döyüşə yollanıblar, baba-nənələrimiz qol götürərək yallı tutub oynayıblar. Muxtar respublikamızın Şərur, Ordubad, Şahbuz və digər ərazilərində "Köçəri", "El yallısı", "Tənzərə", "Siyaqutu", "Dönə-dönə", "Ürfanı", "Üçayaq", "Çöpüdü" ("Qazı-Qazı"), "Tello", "Dördayaq", "Naxçıvanı", "Xələfi" və sair kimi yallılar məşhur olub.

Digər bir müsahibimiz Naxçıvan Dövlət Universitetinin Xalq çalğı alətləri kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Quliyevadır.

Yallı Naxçıvanın ənənəvi qrup rəqslərinə daxildir, – deyən müsahibim bildirir ki, Naxçıvanda yallı rəqsləri ad, melodiya, ifa variantları ilə geniş və zəngindir. Variantlılıq yallı rəqslərinin əsas yaşama və yayılma xüsusiyyətlərindən biridir. "Köçəri" yallısının variantlığı və spesifik xüsusiyyətləri bir çox tədqiqatçıların diqqətini cəlb edib. Onlar rəqsi məhz bu xüsusiyyətlərinə görə nota alıblar. 1965-1966-cı illərdə professor Bayram Hüseynli tərəfindən hazırlanmış "Azərbaycan xalq rəqs melodiyaları" adlı (iki dəftər) məcmuənin birinci dəftərinə "Köçəri" yallısı və digər kütləvi xalq rəqsləri (yallılar) daxil edilib.

Bu gün həmin rəqslərə sahib çıxmaq, onu gələcək nəsillərimizə çatdırmaq hər birimizin müqəddəs borcudur.

Musiqişünas Samirə Hüseynova isə bildirdi ki, bu gün dünya mədəniyyətinin əsas tərkib hissəsi olan Azərbaycan mədəniyyəti, incəsənəti bəşər sivilizasiyasına əzəmətli sənət əsərləri qazandıraraq onu zənginləşdirib. Təbii ki, yalnız zəngin mədəniyyəti, tarixi, maddi və mənəvi dəyərləri olan bir xalq bəşər sivilizasiyasının inkişafında bu qədər əhəmiyyətli rol oynamağa qadirdir. Bunun da nəticəsidir ki, ölkəmizin bir çox maddi və mənəvi dəyərləri dünya səviyyəli beynəlxalq təşkilatlar tərəfindən qorunan qeyri-maddi irs kimi tanınır.

"Dədə Qorqud" dastanı, kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş-bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalçaçılıq sənəti, tar ifaçılığı, kəlağayı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Qarabağın çövkən ənənəvi atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" isə UNESCO-nun Təcili Qorunma Siyahısında yer alıb.

Müsahibim "Köçəri" və "Tənzərə" rəqslərinin doğma yurdumuz Naxçıvanda geniş yayılması, rayonlarımızın folklor kollektivləri tərəfindən repertuara daxil edilməsi və bir sıra mərasimlər, el şənlikləri, toylara xüsusi bəzək verməsi barəsində də danışdı. Məlum olduğu kimi, bir çox maddi və mənəvi dəyərlərimizi mənimsəməyə çalışan ermənilər "Köçəri" rəqsinə vaxtilə göz dikib, hətta Avroviziya mahnı müsabiqələrinin birində erməni nümayəndəsi finalda bu rəqsi erməni milli rəqsi kimi təqdim etməyə çalışıb. Təbii ki, o zaman Azərbaycan nümayəndəliyinin haqlı etirazı və müdaxiləsi nəticəsində ermənilər bu niyyətlərini də həyata keçirə bilməyiblər. Bu gün Azərbaycan mədəniyyətinə laqeyd qala bilməyən beynəlxalq ictimaiyyət Azərbaycan həqiqətini bir daha etiraf etmiş oldu.

Onu da qeyd edək ki, dekabrın 15-də "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanışı münasibətilə təşkil olunan konsertdə "Şərur" Xalq Yallı Ansamblının ifasında təqdim olunan "Köçəri" və "Tənzərə" yallıları gurultulu alqışlarla qarşılanıb.

Tədbirdə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcrinin, eləcə də Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevin çıxışları da bir daha sübut etdi ki, burada ifa olunan yallılar Naxçıvanın özünəməxsusluğunu, tarixini və zəngin mədəni irsini nümayiş etdirir, əzəldən bu torpağa məxsusdur və bundan sonra da əbədi olaraq qalacaqdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## "Yol hərəkəti təhlükəsizliyi" mövzusunda tədbir

*"Naxçıvan" Universitetində keçirilən tədbiri giriş sözü ilə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylu açıb.*

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları polis polkovnik-leytenantı Rəşad Seyidovun və polis baş leytenantı Ayaz İsmayılovun çıxışları dinlənilib.

Çıxış edənlər Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsində və ərazi polis orqanlarının dövlət yol polisi xidmətlərində yol hərəkəti təhlükəsizliyinin qorunması ilə bağlı görülən işlərin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, yol hərəkəti qayda pozuntularına qarşı mübarizə işi yol patrul xidməti inspektorları tərəfindən vizual şəkildə həyata keçirilir. Bununla yanaşı, muxtar respublika ərazisində 167 nəzarət müşahidə kamerası quraşdırılıb.

Sonda tədbir iştirakçıları "Yol hərəkəti qaydalarını öyrənək və bu qaydalara əməl edək" adlı slayda baxıblar.

**Nuray ƏSGƏROVA**

## Kursantlar arasında intellektual oyun

*Heydər Əliyev adına Hərbi Liseydə Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar kursantlar arasında "Poliqon" strateji intellekt oyunu keçirilib.*

16 komandanın iştirak etdiyi oyunu Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Əlahiddə Ümumqoşun Ordu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyi təşkil edib.

Yarışda ən çox xal toplayan "Əlincə" komandası qalib adını qazanıb. Digər iki pillədə "Qartal" və "Uğur" komandaları qərarlaşıblar.

Qalib komandalar mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Zehirov Mehman Rza oğlunun adına olan 273^A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 925